28 May - Müstəqillik Gününüz mübarək!
www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti
Qəzet 1933-cü ildən çıxır
№-10 (1814) 30 may 2025-ci il



# Psixiatriya kafedrasının 100 illiyi münasibətilə beynəlxalq konfrans keçirilib

**Rektor, professor Gəray Gəraybəyli: Kafedramız elmi araşdırmaların mərkəzi olmaqla yanaşı, minlərlə həkim, psixiatr və psixoloq yetişdirib**

səh. 2

## 10 tələbəmiz "Adlı təqaüd"ə layiq görülüb

səh. 5

## Professor Vaqif Şadlinski Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri seçilib

səh. 5

## Mürəkkəb uroloji əməliyyat uğurla icra edilib

səh. 5



## Rezidentura və magistratura şöbəsi Böyük Elmi Şurada hesabat verib

ATU-da təhsil sistemində şəffaflıq, obyektivlik və beynəlxalq standartlara uyğunluq prinsipləri tətbiq olunur

səh. 3

## Rəqəmsal tibb yeni imkanlar təqdim edir

*Prorektor Nazim Pənahov ATU-da rəqəmsal texnologiyaların tədris prosesinə inteqrasiyası haqqında məlumat verib*

səh.4

## 25 May - Ümumdünya Qalxanabənzər Vəzi Günü idi

*Dünyada milyardlarla insan bu vəzin müxtəlif patologiyalarından əziyyət çəkir*

səh. 7



## Hərbi tibb fakültəsinin yaradılmasının 25 illiyi qeyd olunub

Rektor, professor Gəray Gəraybəyli: Ulu Öndərin sərəncamı ilə yaradılmış fakültə Silahlı Qüvvələr üçün mütəxəssislər hazırlayır

səh. 4

# Psixiatriya kafedrasının 100 illiyi münasibətilə beynəlxalq konfrans keçirilib

## Rektor, professor Gəray Gəraybəyli: Kafedramız elmi araşdırmaların mərkəzi olmaqla yanaşı, minlərlə həkim, psixiatr və psixoloq yetişdirib

**Mayın 22-də Azərbaycan Tibb Universitetində Psixiatriya kafedrasının yaranmasının 100 illiyinə həsr edilmiş “Məhkəmə psixiatriyasının aktual problemləri” mövzusunda beynəlxalq konfransın açılış mərasimi keçirilib. Səhiyyə Nazirliyi, ATU və Məhkəmə-Psixiatrik Ekspertiza Mərkəzinin təşkilatçılığı ilə baş tutan tədbirdə ölkəmizlə yanaşı, Rusiya, Qazaxıstan və Belarusdan mütəxəssislər də iştirak edib.**




*Təkcə son 5 ildə kafedra tərəfindən 116 elmi məqalə, 3 dərslik, 3 monoqrafiya, 4 tədris-metodik vəsait, 7 klinik protokol hazırlanıb. Nəticələr ölkə üzrə psixiatriya müəssisələrində tətbiq edilib və bir çoxu Ümumdünya Səhiyyə Təşkilatının hesabatlarında yer alıb, 23 beynəlxalq və 7 yerli forumda təqdim olunub. Ötən illər ərzində kafedra Azərbaycan elminə görkəmli alimlər bəxş edib, bir çox beynəlxalq layihələrə imza atıb və psixi sağlamlıq sahəsində ölkəmizin etibarlı dayağı olub.*

Açılış nitqi ilə çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru, tibb elmləri doktoru, professor Gəray Gəraybəyli bu yubiley ilində ölkəmizdə psixi sağlamlıq sahəsinin inkişaf tarixinin, bu yolda əziyyət çəkmiş alimlərin fədakar əməyinin və elmə, təhsilə verilən böyük dəyərin bir daha yada salındığını bildirib. Psixiatriya kafedrasının təkcə elmi araşdırmaların və akademik biliklərin mərkəzi olmadığını, həm də minlərlə həkimin, psixiatr və psixoloqun yetişdiyi bir məktəbə çevrildiyini qeyd edib: “Azərbaycanda ixtisaslı tibbi kadrların hazırlanmasına 1919-cu ildən - Bakı Dövlət Universitetinin Tibb fakültəsinin yaradılması ilə başlanılıb. 1920-ci ildə isə rektor, tanınmış nevroloq, professor Sergey Nikolayeviç Davidenkov Tibb fakültəsində Psixonevrologiya kafedrasını təşkil edib. 1925-ci ildə Psixiatriya kafedrası bu kafedradan ayrılaraq, müstəqil elmi-pedaqoji fəaliyyətə başlayıb”.



Bildirilib ki, 1925-ci ildən sonra professor Aleksandr Perelmanın rektorluğu dövründə kafedrada geniş elmi və pedaqoji fəaliyyət aparılıb. Kafedranın nəzdində elmi kitabxana və psixoloji laboratoriya yaradılıb, klinik psixologiya sahəsində də ilk araşdırmalara başlanılıb. 1930-cu ildə müstəqil Azərbaycan Tibb İnstitutunun yaradılması Psixiatriya kafedrasının fəaliyyətində yeni imkanlar açıb. 1939-cu ildən etibarən 20 il ərzində kafedranın müdiri professor Dmitri Sergeyeviç Ozereçkovski olub. Onun ardınca kafedraya Azərbaycanda psixiatriya üzrə ilk tibb elmləri doktoru, eləcə də kafedranın ilk azərbaycanlı rəhbəri Əhməd Abasquliyev, daha sonra professor Ağabəy Sultanov rəhbərlik edib. Ondan sonra kafedranın rəhbəri olan professor Gəray Gəraybəyli əvvəlki dövrdə qoyulmuş ənənələrin davam etdirildiyini bildirib: “Kafedranın əsas fəaliyyət istiqamətlərindən biri kimi psixi və fiziki sağlamlığın qarşılıqlı əlaqəsinin öyrənilməsi seçildi. Azərbaycanda ilk dəfə psixi xəstəliklərdən əziyyət çəkən şəxslərin fiziki sağlamlıq göstəriciləri və somatik xəstəliklər zamanı rast gəlinən psixi pozuntular sistemli şəkildə öyrənildi. Ən mühüm yeniliklərdən biri Çikaqo Universiteti ilə birgə uşaq və yeniyetmələrin psixi sağlamlığı sahəsində həyata keçirdiyimiz elmi layihə oldu”.

Professor G.Gəraybəyli bildirib ki, son 5 ildə iki əsas hadisə – COVID-19 pandemiyası və Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan İkinci Qarabağ müharibəsi kafedranın elmi fəaliyyətinə təsir göstərib: “Kafedramız tərəfindən ilk dəfə olaraq pandemiya dövründə yaranan psixi pozuntularla bağlı tədqiqatlar aparılması nəticəsində klinik protokollar, yardım proqramları hazırlandı. Xalqımızın tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən Müharibəsindən sonra isə şəhid ailələri, qazilər və terror qurbanlarına mərhələli şəkildə psixoloji dəstək göstərilib. Ümumilikdə, son 5 ildə kafedra tərəfindən 116 elmi məqalə, 3 dərslik, 3 monoqrafiya, 4 tədris-metodik vəsait, 7 klinik protokol hazırlanıb. Nəticələr ölkə üzrə psixiatriya müəssisələrində tətbiq edilib və bir çoxu Ümumdünya Səhiyyə Təşkilatının hesabatlarında yer alıb, 23 beynəlxalq və 7 yerli forumda təqdim olunub. Bu illər ərzində kafedramız elmə görkəmli alimlər bəxş edib, bir çox beynəlxalq layihələrə imza atıb və psixi sağlamlıq sahəsində ölkəmizin etibarlı dayağı olub”.

Rektor bu möhtəşəm yubiley tədbirində keçmişə ehtiramla nəzər salaraq, 100 yaşlı kafedranın nailiyyətlərinin qorunaraq gələcək nəsillərə ötürüləcəyini vurğulayıb və konfransın işinə uğurlar arzulayıb.

Səhiyyə nazirinin müavini Nadir Zeynalov təbrik nitqi ilə çıxış edərək, bir əsr yaşı olan Psixiatriya kafedrasının keçdiyi şərəfli yol, bu dövr ərzində kafedraya rəhbərlik edən alimlər, əldə olunan uğurlardan danışıb. Qeyd edib ki, 1920-ci ildə Bakı Dövlət Universitetinin Tibb fakültəsinin nəzdində yaradılan Psixonevrologiya kafedrasının 5 il sonra iki müstəqil struktura - Psixiatriya və Nevrologiya kafedralarına ayrılması ilə ölkəmizdə psixiatriya elminin inkişafının təməli qoyulub. "Psixiatriya - insan psixikasının dərinliklərini araşdıran, insanın ruhi sağlamlığına yönəlmiş olduqca vacib sahədir. Təsadüfi deyil ki, tələbələrin bu sahəyə marağı böyükdür".

Nazir müavini psixiatriyanın müxtəlif istiqamətləri olduğunu xatırladaraq, onlar arasında məhkəmə psixiatriyasını xüsusi vurğulayıb, onun tibb və hüquq elmlərinin kəsişməsində dayanan mürəkkəb bir sahə olduğunu bildirib: “Məhkəmə psixiatriyası həm elmi, həm də praktik baxımdan peşəkar yanaşma tələb edən bir sahədir. Cəmiyyətdə ədalətli hüquqi qiymətləndirmə və qərarların qəbulunda onun rolu əvəzsizdir. Məhkəmə psixiatrları cinayət törətmiş insanlarla işləyirlər və hakim onların rəyi əsasında qərar verir. Onların üzərində həm hüquqi, həm də mənəvi məsuliyyət yükü böyükdür”.

Çıxışının sonunda N.Zeynalov konfransa müvəffəqiyyətlər arzulayıb.

Beynəlxalq konfransda xüsusi qonaq qismində çıxış edən Türkiyə Ədliyyə Nazirliyinin Ədliyyə tibb qurumu, müşahidə və ixtisas dairəsinin rəhbəri professor Abdullah Yıldırım İbrahimoğlu yubileylə bağlı təbriklərini çatdırıb. Qeyd edib ki yubileyi qeyd olunan kafedra yalnız Azərbaycanda deyil, həm də beynəlxalq səviyyədə psixiatriya elminin inkişafına töhfə verib. Yüz illik zəngin təcrübənin nəticəsi kimi, Psixiatriya kafedrasının dünya səviyyəsində əməkdaşlıqlara, elmi yeniliklərə açıq olması və beynəlxalq təcrübənin tədris və praktikaya inteqrasiyası təqdirəlayiqdir.

Belarus Respublikası Dövlət Məhkəmə Ekspertizası Komitəsinin mərkəzi aparatının Məhkəmə-psixiatriya ekspertizaları baş idarəsinin rəisi, dövlət məhkəmə tibbi ekspert-psixiatrı, dosent, t.e.n. Yuri Ostyanko yubiley tədbirinə dəvətə görə, ATU-nun və Psixiatriya kafedrasının rəhbərliyinə dərin təşəkkürünü bildirib. Qonaq konfrans çərçivəsində keçirilən müzakirələrin region ekspertləri üçün faydalı olacağını, xüsusilə Azərbaycan və Belarus arasındakı elmi-tibbi əlaqələrin inkişafına təkan verəcəyini bildirib.

Sonra S.D.Asfendiyarov adına Qazaxıstan Dövlət Tibb Universitetinin G.İ.Zaltsman adına Psixiatriya və narkologiya kafedrasının professoru, "Psixi sağlamlıq sahəsində işləyən mütəxəssislərin assosiasiyası" Regional İctimai Təşkilatının prezidenti, tibb elmləri doktoru Saqat Altınbekov tədbir iştirakçılarına təbriklərini çatdırıb. Təmsil etdiyi qurumun ATU ilə əməkdaşlığını yüksək qiymətləndirdiyini və bu əlaqələrin gələcəkdə genişlənəcəyinə əmin olduğunu vurğulayıb.

Rusiya Federasiyası Səhiyyə Nazirliyinin V.P.Serbski adına Milli Tibbi Tədqiqat Psixiatriya və Narkologiya Mərkəzi Federal Dövlət Büdcə Müəssisəsinin baş direktoru, MDB-yə üzv dövlətlərin psixiatriya və narkologiya sahəsində baza təşkilatının rəhbəri, Rusiya Səhiyyə Nazirliyinin ştatdankənar baş psixiatr-narkoloqu, tibb elmləri doktoru Svetlana Şport da tədbir iştirakçılarını salamlayaraq, mötəbər yubileydə iştirakından məmnun olduğunu bildirib. O, konfransı yalnız Azərbaycan tibb sahəsi üçün deyil, həmçinin bölgədə fəaliyyət göstərən ekspertlər üçün mühüm platforma kimi qiymətləndirib. S.Şport nəzərə çatdırıb ki, V.P.Serbski adına Milli Tibbi Tədqiqat Psixiatriya və Narkologiya Mərkəzinin ATU-nun Psixiatriya kafedrası ilə sıx əməkdaşlığı hər iki ölkənin tibb elminə böyük töhfədir.

Sonra Psixiatriya kafedrasının 100 illiyinə həsr edilmiş filmin nümayişi baş tutub, kafedranın bir əsrlik tarixinə nəzər yetirilib. Psixiatriya kafedrasının professoru, Azərbaycan Psixiatriya Assosiasiyasının prezidenti Nadir İsmayılov 100 il ərzində kafedraya rəhbərlik etmiş və burada yetişmiş tanınmış alimlər haqqında ətraflı məlumat verib. Qeyd edib ki, 1927-ci ildə Bakıda Psixiatriya İnstitutu yaradılsa da, cəmi iki il sonra kadr çatışmazlığı səbəbindən bu mərkəz bağlanılıb: “Çünki həmin dövrdə bir nəfər də olsa, elmi dərəcəyə malik azərbaycanlı mütəxəssis yox idi. Bu gün isə Azərbaycanda 10 psixiatr tibb elmləri doktoru elmi dərəcəsinə malikdir. Azərbaycan Tibb Universitetinin Psixiatriya kafedrasında 6 professor çalışır. Bu da kafedranın keçdiyi 100 illik şərəfli tarixin, bu yolda zəhmət çəkmiş alimlərin elmi fəaliyyəti sayəsində mümkün olub. Əminik ki, bu konfrans həm elmi fikir mübadiləsi, həm də yeni əməkdaşlıqlar üçün dəyərli bir platformaya çevriləcək”.

Professor N.İsmayılov Psixiatriya kafedrasının bütün əməkdaşlarını, məzunlarını və tərəfdaşlarını təbrik edərək, hər kəsə uğurlar diləyib.

Açılış mərasimindən sonra beynəlxalq konfrans paralel sessiyalar ilə işini davam etdirib. Tədbirdə Azərbaycan, Rusiya, Qazaxıstan və Belarusda məhkəmə-psixiatrik ekspertizasının təşkili ilə bağlı təqdimatlar baş tutub.

İki gün davam etmiş beynəlxalq konfransda psixi pozuntular zamanı cinayət məsuliyyətinin müəyyən edilməsi, həmin şəxslərin sosial müdafiəsi, psixi sağlamlıq xidmətlərinin tibbi sanitariyaya inteqrasiyası, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlərin qarşısının alınmasında psixiatriyanın rolu, mülki işlərdə məhkəmə-psixiatrik ekspertizası, intiharın psixoloji aspektləri, cinayət törətmiş qadınların kriminal-psixoloji xarakteristikası və s. aktual, eyni zamanda maraqlı mövzular müzakirə olunub.

**Günel ASLANOVA**
**Foto: Kənan Zülfüqarov**





# Rezidentura və magistratura şöbəsi Böyük Elmi Şurada hesabat verib

## ATU-da təhsil sistemində şəffaflıq, obyektivlik və beynəlxalq standartlara uyğunluq prinsipləri tətbiq olunur

**Mayın 27-də Azərbaycan Tibb Universiteti Böyük Elmi Şurasının növbəti iclası keçirilib. İclasa sədrlik edən rektor, professor Gəray Gəraybəyli əvvəlcə Klinik allerqologiya və immunologiya kafedrasının müdiri, Əməkdar elm xadimi, Əməkdar həkim, professor Lalə Allahverdiyevanı Böyük Britaniyanın Kembric şəhərindəki St Catharine's Kollecində "COVID-19: Əsrin xəstəliyi" ("COVID-19: Disease of the Century") adlı kitabının təqdimat mərasiminin keçirilməsi münasibətilə təbrik edib, bu kitabı pandemiyanı yalnız tibbi aspektdən deyil, həm də qlobal miqyasda intellektual və strateji yanaşma prizmasından təhlil edən ilk əhatəli nəşrlərdən biri kimi qiymətləndirib.**

Bundan sonra Rezidentura və magistratura şöbəsinin mütəxəssis hazırlığının vəziyyəti və qarşıda duran vəzifələr barədə hesabatı dinlənilib.

Tibb sahəsində ixtisaslaşmanın ən yüksək mərhələlərindən biri olan rezidentura təhsilinin ölkəmizdə də səhiyyə sisteminin keyfiyyətinin artırılmasında, peşəkar həkim-mütəxəssislərin hazırlanmasında mühüm əhəmiyyət daşıdığını deyən şöbənin müdiri, dosent İlhamə Mustafayeva bildirib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları, Nazirlər Kabinetinin qərarları ilə tənzimlənən rezidentrura təhsil sistemində şəffaflıq, obyektivlik






və beynəlxalq standartlara uyğunluq prinsipləri tətbiq olunur.

İ.Mustafayeva 2024/2025-ci tədris ilində rezidenturaya 262 nəfərin qəbul olunduğunu diqqətə çatdıraraq qeyd edib ki, onlardan 93-ü ATU-nun məzunu, 17-si isə müsabihə yolu ilə qəbul olunan əcnəbi vətəndaşlardır.

Məruzədə dövri attestasiyanın nəticələri də öz əksini tapıb. Belə ki, 2023/2024-cü tədris ili üzrə 55 ixtisas və 26 bazadan 1084 nəfər imtahana buraxılıb, onlardan 1067 (98%) nəfəri imtahanda iştirak edib, 17 (1,5%) nəfər 60-dan aşağı bal toplayaraq növbəti 2 ay ərzində təşkil edilmiş təkrar attestasiyadan keçib. Yekun attestasiyanın qərarına əsasən, Səhiyyə Nazirliyinin müvafiq əmri ilə 281 nəfər həkim-mütəxəssis adı alıb.

2025/2026-cı tədris ili üçün rezidenturaya yeni təsnifatlar üzrə Nüvə təbabəti, Oral patologiya, Oral radiologiya, Sualtı və hiperbolik təbabət, Şüa onkologiyası, Təcili tibb və Torokal cərrahiyyə ixtisaslarına qəbula dair təkliflər təqdim olunub.

Şöbənin ikinci əsas fəaliyyət sahəsi olan magistraturanın istiqamətlərindən də söhbət açan İ.Mustafayeva bildirib ki, hal-hazırda 5 ixtisas, 9 ixtisaslaşma üzrə 140 magistrant təhsil alır, 10 magistrant akademik məzuniyyətdədir. 9 magistrant isə müxtəlif səbəblərdən xaric edilib.

O, 2024/2025-ci tədris ilinin payız semestrinin qış sessiyasında I və II kurs üzrə ixtisas fənlərindən imtahanların bilet üzərindən, qeyri-ixtisas fənlərindən isə İmtahan mərkəzində test üsulu ilə keçirildiyini söyləyib.

Magistrantların elmi-tədqiqat işlərinin aparılması üçün bazaların və laboratoriyaların maddi-texniki imkanlarının artırılmasının vacibliyinə də toxunan şöbə müdiri, həkim-mütəxəssislərin yetişdirilməsi və təkmilləşdirilməsi istiqamətində müvafiq şöbələrin koordinasiyalı fəaliyyətinin əhəmiyyətini diqqətə çatdırıb.

Çıxışının sonunda professor Gəray Gəraybəylinin rəhbərliyi ilə Azərbaycan Tibb Universitetinin ixtisaslı mütəxəssislər yetişdirməklə bundan sonra da səhiyyə sisteminin inkişafına ən gözəl şəkildə töhfələr verəcəyinə əminliyini ifadə edib.

Məruzə ətrafında çıxış edən Klinik allerqologiya və immunologiya kafedrasının müdiri, professor Lalə Allahverdiyeva, Tibbi mikrobiologiya və immunologiya kafedrasının müdiri, professor Həqiqət Qədirova və Uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva rezidentlərin iş prinsipindən, aparıcı mütəxəssislərin rəhbərliyi altında müalicə işi ilə məşğul olan rezidentlər üçün əlverişli şərait yaratmağın zəruriliyindən söhbət açıblar. Hesabat məruzəsini qənaətbəxş qiymətləndirərək təkliflərini irəli sürüblər.

Müzakirələri yekunlaşdıran professor Gəray Gəraybəyli hər iki təhsil pilləsinin ölkəmizdə yüksək səviyyədə həyata keçirildiyini vurğulayıb. Bildirib ki, rezidentura sonuncu təhsil pilləsi olaraq ölkəmizdə yüksək ixtisaslı həkim-mütəxəssis hazırlığında müstəsna əhəmiyyətə malikdir. Bu sistemə keçidin vaxtilə ciddi müqavimətə rast gəldiyini də xatırladan rektor, son illərdə rezidentura sahəsində çox böyük işlər görüldüyünü, III-IV-V kurs rezidentlərinin artıq həkim kimi formalaşdığını deyib. Eyni zamanda mövcud problemlərə də toxunaraq ilk növbədə tədris proqramlarının təkmilləşdirilməsinin zəruriliyinə diqqət çəkib. Qeyd edib ki, hər bir rezident rotasiya dövründə hansı nəzəri, praktik fəaliyyətləri yerinə yetirməli olduğunu yaxşı bilməlidir: "Mən hesab edirəm ki, bütün rezidentlərin, xüsusilə cərrahi yönümlü rezidentlərin proqramlarında praktik fəaliyyət öz əksini tapmalıdır. Ən ağrılı məsələ rotasiya məsələsidir. Daxili rotasiyalar aydındır. Yeni rezident proqram üzrə hansısa kafedraya gedir və müəyyən müddətdən sonra onun əldə etdiyi biliklər, yerinə yetirdiyi prosedurlar haqqında fərdi gündəliyində qeydlər aparılır. Xüsusi narahatlıq yaradan isə xarici rotasiyalardır. Təhlillər göstərir ki, heç də rezidentlərin hamısı xaricə bilik dalınca getmir. Bəzi rezidentlər isə 1 il, 1 ildən çox rotasiyada olduqları ölkənin vətəndaşlığını almağa cəhd göstərir, burada deyildiyi kimi, rezidentura təhsilindən bir "tramplin" kimi istifadə etməyə çalışırlar".



Çıxışında nizam-intizam məsələsinin vacibliyini söyləyən universitetin rəhbəri, bəzən rezidentlərin bazalara gəlməmisinin səbəblərinə də aydınlıq gətirib. Onun sözlərinə görə, bunun bir səbəbi nizam-intizamın aşağı səviyyəsidirsə, digər səbəbi bəzi kafedralarda, şöbələrdə tədris səviyyəsinin aşağı olmasıdır: "Çünki rotasiya yerinə gəlməyən rezidentlərin hamısı heç də orda-burda boş vaxt keçirmir. Onların əksəriyyəti hansısa özəl klinikada öz ixtisasları üzrə mütəxəssis tapır, həm şəxsi büdcələrindən maliyyə ayıraraq bilik və bacarıqlarını artırırlar. Ən peşəkar və hazırlıqlı mütəxəssislərin universitetimizdə olmasına baxmayaraq, rezidentlərin digər klinikalara üz tutması ciddi qüsurdur".

Yekun nitqində rezident və magistrlərin elmi fəaliyyətinə də yer ayıran rektor, müxtəlif ixtisaslar üzrə rezidentlərə rəhbərlik edən kadrların reytinqinin yaxşı-yaxşı öyrənilməsinin vacibliyindən də danışıb və tövsiyələrini verib. Həmçinin həkimlərin sertifikasiyadan keçməsi qaydalarında ediləcək dəyişikliklər barədə şura üzvlərini məlumatlandırıb.

İclasın sonunda "Təbib" Tədris İdman Mərkəzinin yeni tərtib edilmiş əsasnaməsinin təsdiq olunması, ATU-nun Tədris-Metodik Şurasının tərkibində ikili diplom proqramları üzrə işçi qrupunun yaradılması, Şüa diaqnostikası və terapiyası, Anesteziologiya və reanimatologiya kafedralarının adlarının dəyişdirilməsi məsələlərinə də baxılıb.

Daha sonra rezidentlərin xarici rotasiyalarının təşkili, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin magistraturaya, eləcə də rezidenturaya qəbul edilməsi barədə müvafiq qərar qəbul edilib. Şəhid ailəsi üzvlərinin sosial müdafiəsini gücləndirmək və onların müalicələrini təşkil etmək məqsədilə ATU-nun tabeliyində fəaliyyət göstərən klinikalarda universitet hesabına müalicə olunmalarına da razılıq verən Böyük Elmi Şura dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşri məsələlərini həll etməklə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# Yeni təhsil proqramlarına məsul komissiyanın növbəti iclası keçirilib

## Magistratura səviyyəsində 129 ixtisas üzrə 925 ixtisaslaşma təklif edilib



**Elm və Təhsil Nazirliyində yeni ali təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış komissiyanın növbəti iclası keçirilib. Nazir müavini, komissiyanın sədri İdris İsayevin rəhbərliyi ilə keçirilən iclasda komissiya üzvləri, o cümlədən ATU-nun Tədris işləri üzrə prorektoru, professor Nazim Pənahov və nazirliyin rəsmiləri iştirak ediblər.**

İ.İsayev komissiyanın tərkibində müvafiq ixtisaslar üzrə yeni təhsil proqramlarının hazırlanması ilə bağlı yaradılmış işçi qruplarının üzvlərinin prosesdə aktiv iştirak etdiklərini bildirib.

İclasda komissiya üzvləri ilə birgə magistratura səviyyəsində təhsilin məzmununun təkmilləşdirilməsinə dair fikir mübadiləsi aparılıb. Çıxış edənlər ölkənin sosial-iqtisadi inkişaf tələblərinə uyğun olaraq magistratura səviyyəsində mütəxəssis hazırlığının keyfiyyətinin artırılmasının vacibliyini vurğulayıblar.

Daha sonra təqdimatla çıxış edən komissiyanın üzvü, nazirliyin Elm, ali və peşə təhsili şöbəsinin müdiri Turxan Süleyman ali təhsil pilləsinin magistratura səviyyəsi üzrə ixtisaslaşmaların yeni siyahısı və magistratura səviyyəsi üzrə təhsil proqramlarının çərçivə sənədinin yekun versiyası haqqında iştirakçılara məlumat verib. Şöbə müdiri əlavə edib ki, işçi qrupları tərəfindən magistratura səviyyəsində 10 ixtisas qrupunun ümumilikdə 129 ixtisası üzrə 925 ixtisaslaşma təklif edilib.

Görüş iştirakçılarının müzakirələrinə əsasən səsvermə nəticəsində sənədlərə razılıq verilib.

**Yeni təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış komissiyanın tərkibində Azərbaycan Tibb Universiteti üzrə işçi qrupun mayın 14-də növbəti iclası keçirilib.**

# ATU-da yeni təhsil proqramları müzakirə olunub



Tədris işləri üzrə prorektoru, professor Nazim Pənahov qarşıda duran prioritet məsələlər və indiyədək görülmüş işlər barədə ətraflı danışıb. Prorektor magistratura pilləsi üzrə Əczaçılıq, Fizioterapiya, İctimai səhiyyə, İdman tibbi, Qidalanma və dietologiya, Tibb bacılığı ixtisaslarına daxil olan yeni ixtisaslaşmalar haqqında məlumat verib. Tədris departamentinin müdiri, dosent Kamandar Yaqubov nəzərə çatdırıb ki, beynəlxalq təhsil standartlarına və əmək bazarının tələblərinə əsasən magistratura pilləsi üzrə bir sıra mühüm dəyişikliklər baş verib. İxtisaslaşmaların sayı 9-dan 35-ə qədər artırılıb. Plan yerlərinə dair təkliflər hazırlanacaq və hər bir ixtisaslaşma üçün işçi qrup yaradılacaq. Həmçinin əmək bazarının nümayəndələri ilə görüşlər keçiriləcək. O qeyd edib ki, tədris proqramlarının tərtibinə kafedraların professor-müəllim heyəti cəlb olunacaq.

İclasda çıxış edən Elm və Təhsil Nazirliyində universitetimizin yeni təhsil proqramlarının təsdiq olunması üzrə komissiyanın həmsədri, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru İradə Axundova bildirib ki, İctimai səhiyyə ixtisasının məzunları üçün iş imkanlarının artırılması vacibdir. Artıq bu istiqamətdə bir sıra işlər nəzərə tutulub. Mayın 22-də işçi qrupun daha bir iclası keçirilib. Tədris departamentinin müdiri K.Yaqubov diqqətə çatdırıb ki, müzakirələrə səbəb olan əsas mövzu magistratura pilləsi üzrə ixtisaslaşmaların hazırlanması olub: "Əczaçılıq və İctimai səhiyyə fakültələrində magistr qəbulu üzrə bir sıra mühüm dəyişikliklər nəzərdə tutulub. Bu dəyişikliklər plan yerlərinin formalaşmasını və yeni tədris proqramlarının hazırlanmasını əhatə edir. Həmçinin İctimai səhiyyə ixtisası üzrə bakalavr səviyyəsində tədris prosesi 4 illik müddətdə həyata keçiriləcək".

Elm və Təhsil Nazirliyində universitetimizin yeni təhsil proqramlarının təsdiq olunması üzrə komissiyanın həmsədri İ.Axundova ötən iclaslar zamanı mühüm qərarların qəbul edildiyini və tətbiq olunan dəyişikliklərin bakalavr və magistr hazırlığında müsbət nəticə verəcəyinə əmin olduğunu vurğulayıb.

ATU-nun rəhbər şəxsləri və professor-müəllim heyətinin iştirakı ilə keçirilən hər iki görüşdə yeni proqramların hazırlanmasına dair təkliflər səsləndirilib.

# Hərbi tibb fakültəsinin yaradılmasının 25 illiyi qeyd olunub

## Rektor, professor Gəray Gəraybəyli: Ulu Öndərin sərəncamı ilə yaradılmış fakültə Silahlı Qüvvələr üçün mütəxəssislər hazırlayır

**Mayın 26-da Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin yaranmasının 25 illik yubileyinə həsr olunmuş "Hərbi təbabətin aktual problemləri-2025" adlı elmi-praktik konfrans keçirilib.**






Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi yad edilib. Dövlət Himni səsləndirildikdən sonra çıxış üçün söz rektor, professor Gəray Gəraybəyliyə verilib. Rektor qonaqları salamlayaraq, Hərbi tibb fakültəsinin fəaliyyəti və keçdiyi şərəfli yol barədə konfrans iştirakçılarına ətraflı məlumat verib: "Ulu Öndər Heydər Əliyev müstəqilliyimizin qorunub saxlanması üçün bütün sahələrdə olduğu kimi, ordu quruculuğuna da özünün layiqli töhfələrini verib. Bu töhfələrdən biri də onun 25 may 2000-ci ildə imzaladığı sərəncama əsasən yaradılmış Hərbi tibb fakültəsidir. Fakültənin məqsədi Azərbaycan Respublikası Silahlı Qüvvələrinə hərbi həkim, feldşer hazırlamaq, eyni zamanda ordumuzda çalışan tibbi heyətin müxtəlif ixtisaslar üzrə təkmilləşməsini həyata keçirməkdir".

Professor G.Gəraybəyli, həmçinin hərbi həkimlərin savadlı və bacarıqlı mütəxəssislər kimi yetişməsi, yüksək səviyyədə təhsillərini davam etdirməsi üçün onlara dövlətimiz tərəfindən yaradılan hər cür şərait, ikipilləli təhsil sistemi, Türkiyənin Gülhanə Təhsil və Araşdırma Xəstəxanasında keçdikləri rotasiya və s. məqamları vurğulayıb: "Hazırda fakültənin rezidentura kursunda 21 ixtisas üzrə 125, hərbi həkim hazırlığı kursunda 356, feldşer hazırlığı kursunda 194 nəfər təhsil alır. Rezidentura təhsili alan sonuncu kurs həkimlərimizdən 9 nəfər Gülhanə Təhsil və Araşdırma Xəstəxanasında, 4 nəfər isə Ege Universitetinin klinikasında rotasiya keçir. Ötən il imtahanlarda 400-dən çox bal toplayan 87 nəfər fakültəyə, bir o qədər də feldşer hazırlıq kursuna qəbul olunub. Hərbi həkim işi ixtisası üzrə 40 kursant dövlət imtahanlarından müvəffəqiyyətlə keçib və onlara tibb xidməti leytenantı hərbi rütbəsi verilib".

Fakültənin məzun və tələbələrinin həm koronavirus dönəmində, həm də 44 günlük Vətən müharibəsi zamanı göstərdiyi qəhrəmanlıqlardan, onların fədakar əməyindən danışan rektor, yaralı hərbçiləri döyüş meydanından çıxaran zaman 14 məzunun şəhid olduğunu xüsusi qeyd edib. Universitetimizin rəhbəri tələbə və rezidentlərin apardığı elmi raşdırmalar, konfranslara təqdim olunan məruzələr, beynəlxalq konfrans və olimpiadalarda qazanılan uğurlara da diqqət çəkib.



Milli Müdafiə Universitetinin (MMU) rektoru, general-mayor Gündüz Əbdülov öz çıxışında rəhbərlik etdiyi universitetin hərb sahəsində hazırladığı kadrlardan, qazandığı uğurlardan söhbət açıb, dövlətimizin suverenliyi və təhlükəsizliyinin qorunmasında ordumuzun həlledici rolunu qeyd edib: "Bu baxımdan, güclü və dövrün tələblərinə cavab verən Silahlı Qüvvələrin formalaşması böyük əhəmiyyətə malikdir. Bu istiqamətdə hərbi təhsil sistemi milli təhlükəsizliyin mühüm strateji komponentlərindən biri kimi çıxış edir. Ona görə də həm Milli Müdafiə Universiteti, həm də Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin üzərinə mühüm vəzifələr düşür".

General-mayor hələ sovetlər birliyinin güclü olduğu dövrdə, 1971-ci ildə qoyulmuş qadağalara baxmayaraq, Ulu Öndər Heydər Əliyevin ittifaq respublikaları arasında fərqliliyi ilə seçilən Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılmasına nail olduğunu xatırladıb və bu məktəbdə yetişən kadrların potensialından milli ordu quruculuğu zamanı lazımi şəkildə istifadə edildiyini bildirib. Eyni zamanda, Hərbi tibb fakültəsinin məzunlarının 44 günlük Vətən müharibəsi zamanı necə rəşadət göstərdiklərini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

MMU-nun nəzdində Hərbi Elmi-Tədqiqat İnstitutunun rektoru, general-mayor, dosent Arif Həsənov isə Hərbi tibb fakültəsinin kursantlarının apardığı elmi araşdırmalar və qazandığı nailiyyətlərdən, onların beynəlxalq səviyyəli nüfuzlu jurnallarda məqalələrinin nəşr olunmasından bəhs edib: "3 sahə var ki, bunlarda güzəşt və xəyanət bağışlanmazdır. Onlardan biri təhsil, ikincisi tibb, üçüncüsü isə hərbi sahədir. Hərbi tibb fakültəsinin tələbələri bu gün həm təhsil alır, həm də gələcəyin həkim və hərbçisi olacaqlar. Bilirəm ki, fakültənin rəhbərliyi bu yüksək tələbləri öz fəaliyyətində daim nəzərə alır".

Müdafiə Nazirliyinin Tibb İdarəsinin rəisi, tibb xidməti polkovniki Anar İsmayılov çıxışında Müdafiə Nazirliyinin tabeliyində olan tibb müəssisələrində ATU-nun Hərbi tibb fakültəsində hazırlanmış mütəxəssislərin yerləşdirilməsi, onların potensialından istifadə edilməsi məsələsinə toxunub. Baş Klinik Hospitalın nəzdində poliklinika və digər tibb müəssisələrinin fəaliyyətindən danışan A.İsmayılov, işğaldan azad olunmuş ərazilərdə bir neçə hospitalın, o cümlədən Xankəndidə hərbi hospitalın istifadəyə verilməsini, bu müəssisələrdə Hərbi tibb fakültəsinin məzunlarının işlə təmin olunacağını qeyd edib.

Hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovniki Məharət Rzayev çıxış edərək, may ayının əlamətdar günlərlə zəng olduğunu bildirib. Ulu Öndərin dünyaya gəlişinin, Müstəqillik Gününün, Hərbi tibb fakültəsinin yaradılmasının bu əlamətdar günlər sırasında olduğunu diqqətə çatdırıb: "Ölkəmizdə hərbi tibb sistemində savadlı və yüksək hazırlıqlı tibbi kadrların hazırlanması dövlətimizin hərbi təhlükəsizlik strategiyasında mühüm yer tutur. Bu məqsədə nail olunmasında Hərbi tibb fakültəsinin əvəzsiz rolu danılmazdır. Bu fakültənin fəaliyyəti illərdir ki, gələcək hərbi həkimlərin yalnız nəzəri biliklərə deyil, eyni zamanda onların döyüş şəraitində, ekstremal tibbi situasiyalarda düzgün qərarvermə bacarığına yiyələnməsinə, elmi-pedaqoji potensiala və vətənpərvərlik ruhuna əsaslanır. Bu uğurların mərkəzində isə, sözsüz ki, zəngin elmi və hərbi təcrübəyə malik olan Hərbi tibb fakültəsinin kollektivi dayanır".

Sonra fakültəyə vaxtilə rəhbərlik etmiş, eləcə də hazırda dərs deyən müəllimlərə xatirə plaketi təqdim olunub. Fakültənin dünəni, bu günü və sabahına dair qısametrajlı film nümayiş etdirilib.

Hərbi tibb fakültəsinin məzunu, tibb xidməti leytenantı Nicat Nəsibli və Müalicə-profilaktika fakültəsinin 4-cü kurs tələbəsi Nigar Babayevanın aparıcılığı ilə konfrans rəsmi hissəni bitirib və bədii hissəyə start verilib. Tələbələrimizin vətənpərvərlik mövzusunda səsləndirdiyi mahnılar tədbirə xüsusi rəng qatıb. Cansu Güzelin ifa etdiyi "Azərbaycan", Sezer Çelikin "Bil oğlum", Liva Bitmez və Lalə Salmanlının "Torpağın səsi", Sara Adayevanın "Ulu vətən", Məryəm Nayibovanın "Azərbaycan" mahnıları alqışlarla qarşılanıb.

**Qabil ABDULLAYEV**

# Rəqəmsal tibb yeni imkanlar təqdim edir

## Prorektor Nazim Pənahov ATU-da rəqəmsal texnologiyaların tədris prosesinə inteqrasiyası haqqında məlumat verib

**Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunda Səhiyyə Nazirliyi, Milli Məclisin Səhiyyə Komitəsi, Milli Onkologiya Mərkəzi, Azərbaycan Tibb Universiteti, İnformasiya Texnologiyaları İnstitutu, Azərbaycan Texniki Universiteti və Biofizika İnstitutunun təşkilatçılığı ilə "Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" adlı II respublika elmi-praktiki konfransı keçirilib.**




Tədbirdə ölkənin müvafiq dövlət qurumlarının rəhbərləri, ali təhsil müəssisələri, AMEA, həmçinin Elm və Təhsil Nazirliyinin elmi-tədqiqat institutlarının alim və mütəxəssisləri, KİV nümayəndələri iştirak ediblər.

Tədbirin açılış mərasimində AMEA-nın vitse-prezidenti, ETN İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev çıxış edərək, rəqəmsal tibb məsələlərinə həsr olunmuş konfransın müvafiq sahədə aparılan tədqiqatlar, əldə olunan nailiyyətlər və mövcud problemlərin müzakirəsi, eləcə də yeni vəzifələrin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini söyləyib. IV Sənaye İnqilabı və süni intellektin təsiri ilə yaranan qabaqcıl texnologiyaların inkişaf etdirilməsinin dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildiyini söyləyən akademik R.Əliquliyev, cənab Prezident İlham Əliyev tərəfindən 2025-ci ildə bir neçə mühüm strateji sənədin imzalandığını söyləyib. O, "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası", "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın alim və mütəxəssislərin qarşısında mühüm vəzifələr qoyduğunu nəzərə çatdırıb.

Səhiyyə nazirinin müavini. dosent Nadir Zeynalov konfrans iştirakçılarını nazir Teymur Musayevin adından salamlayıb. Müasir dövrdə rəqəmsallaşmanın cəmiyyət həyatının bütün sahələrinə nüfuz etdiyini qeyd edən N.Zeynalov, rəqəmsal həllərin tibb sahəsində sərhədsiz imkanlar açdığını və strateji əhəmiyyətə malik olduğunu, pasiyentlərə diaqnozun qoyulması, həkimə dəstək göstərilməsi və s. istiqamətlərdə geniş tətbiq olunduğunu vurğulayıb. Azərbaycan Tibb Universitetinin Tədris işləri üzrə prorektoru, professor Nazim Pənahov çıxış edərək tədbir iştirakçılarını universitetin rektoru, professor Gəray Gəraybəylinin adından salamlayıb. O, müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafının həyatın bütün sahələrinə, xüsusilə də səhiyyə sisteminə ciddi təsir göstərdiyini qeyd edib. Konfransın rəqəmsal tibbin aktual problemlərinin müzakirəsi və səmərəli əməkdaşlıq əlaqələrinin qurulması baxımından çox əhəmiyyətli platforma olduğunu diqqətə çatdırıb. Tibb Universitetinin rəqəmsal tibbin formalaşması istiqamətində müvafiq elmi qurumlarla əməkdaşlıq etməyə, birgə layihələr həyata keçirməyə hazır olduğunu qeyd edib.

Prorektor, həmçinin Tibb Universitetində rəqəmsal texnologiyaların tədris prosesinə inteqrasiyası, tibb təhsilinin müasir çağırışlara uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər haqqında məlumat verib.

Konfransda AMEA-nın vitse-prezidenti, ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik İradə Hüseynova, səhiyyə nazirinin müşaviri Rüfət Hacıəlibəyov, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, professor Nazim Qasımov, Azərbaycan Tibb Universiteti I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Nuru Bayramov və başqaları çıxış edərək, elmi-nəzəri və praktik problemlərin həlli baxımından rəqəmsal tibbin yeni imkanlar yaratmasının böyük əhəmiyyət daşıdığını vurğulayıblar.

Qeyd edək ki, tədbirdə ATU-nun İT Departmentinin nümayəndələri, Tibbi və bioloji fizika kafedrasının əməkdaşları aktiv iştirak ediblər.



## Professor Vaqif Şadlinski Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri seçilib

**Nəsimi Rayon İcra Hakimiyyətində Nəsimi Rayon Ağsaqqallar Şurasının geniş tərkibdə hesabat konfransı keçirilib. İlk olaraq tədbirə dəvət olunan qonaqlar, rayon rəhbərliyi Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edib.**

Şuranın sədri Vaqif Şadlinski Nəsimi Rayon Ağsaqqallar Şurasının 2023-2025-ci illərə dair hesabatı ilə bağlı geniş məruzə edib.

Azərbaycan Ağsaqqallar Şurasının sədri Eldar Quliyev respublikanın ictimai-siyasi həyatındakı mövcud vəziyyəti geniş təhlil edib, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə aparılan iqtisadi islahatlardan danışıb, Nəsimi Rayon Ağsaqqallar Şurasının, xüsusilə Şuranın sədri Vaqif Şadlinskinin fəaliyyətini yüksək dəyərləndirib.

Sonra millət vəkili Asif Əsgərov, rayon Ağsaqqallar Şurasının üzvü, Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov, Azərbaycan Tibb Universitetinin professoru Qalib Qarayev və başqaları çıxış edərək rayonun ictimai-siyasi həyatında ağsaqqalların rolundan, rayonda ağsaqqalların nüfuzunun günbəgün artmasından və bu işdə Şuranın sədri Vaqif Şadlinskinin böyük rolundan söz açıblar.

Konfrans iştirakçıları 2023-2025-ci illər üzrə hesabatı qənaətbəxş hesab etdikdən sonra açıq səsvermə yolu ilə əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi-professoru Vaqif Şadlinski yenidən Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri seçilib.

## Orqan transplantasiyasına dair məruzələr maraqla qarşılanıb



**Tədris Cərrahiyyə Klinikasının akt zalında "Beyin ölümünün müasir diaqnostikası və orqan transplantasiyasında əhəmiyyəti" adlı seminar keçirilib.**

II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəylinin təşkilati dəstəyi ilə baş tutan seminarda Səhiyyə Nazirliyinin Orqan donorluğu və transplantasiya üzrə koordinasiya mərkəzinin İdarə Heyətinin sədri, t.ü.f.d, reanimotoloq-anestezioloq Yeganə Abbasova və Mərkəzi Gömrük Hospitalının şöbə müdiri, t.ü.f.d, cərrah-transplantoloq Mircəlal Kazımının məruzələri böyük maraqla qarşılanıb.

## Əməkdaşımız nüfuzlu simpoziumda məruzə oxuyub

**ATU-nun İctimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev 21-23 may 2025-ci ildə Türkiyənin Niğde şəhərində keçirilən TUDAS - Türk Dövlətləri Araşdırmaları Simpoziumunda iştirak edib.**

Onun türk xalqlarının ortaq tarixinə yeni baxış və tarixi dərkin müasir problemlərini özündə geniş əks etdirən "Tarixi epistemologiya" mövzusunda məruzəsi yüksək qiymətləndirilərək simpoziumun sertifikatına layiq görülüb.

Həmçinin professor Q.Əliyev bölüm rəhbəri olaraq çıxışları maraq doğuran simpozium iştirakçılarına sertifikatlar təqdim edib.



# Stomatologiyanın aktual problemlərinə dair elmi-praktik konfrans baş tutub

**Mayın 16-da Tədris Stomatoloji Klinikada stomatologiyanın aktual problemlərinə dair beynəlxalq elmi-praktik konfransı keçirilib. "Ümumdünya Ağız Sağlamlığı Günü 2025" konfranslar silsiləsi çərçivəsində keçirilən tədbiri giriş sözü ilə Azərbaycan Stomatoloji Assosiasiyasının prezidenti, ATU-nun Uşaq stomatologiyası kafedrasının müdiri, əməkdar elm xadimi, professor Rəna Əliyeva açıb.**



O, bu konfransların ölkəmizdə Azərbaycan Stomatoloji Assosiasiyasının təşkilatçılığı ilə 2007-ci ildən keçirildiyini qeyd edərək bildirib ki, əsas məqsəd ağız boşluğu gigiyenasına xüsusi önəm vermək, profilaktika tədbirlərini təkmilləşdirməklə insanın, bəşəriyyətin diqqətini ağız sağlamlığına yönəltməkdir.

Konfransın gündəliyini diqqətə çatdıran professor R.Əliyeva, məruzəçilər arasında uzun illərdir dostluq etdiyi, daim Azərbaycan stomatoloqlarının yanında olan, Rusiya Federasiyasının əməkdar həkimi, professor Lima Məmmədovanı görməkdən xüsusi məmnunluğunu söyləyib və sözü ona verib.

Dəvətə və böyük səmimiyyətlə qarşılanmaya görə kolleqalarına təşəkkürünü bildirən professor L.Məmmədova uşaqlığının Azərbaycanın qədim şəhərlərindən biri olan Gəncədə keçdiyini qürur hissi ilə xatırladıb. Sonrakı təhsili və elmi fəaliyyəti haqqında da konfrans iştirakçılarına məlumat verərək Azərbaycan stomatoloqları ilə əməkdaşlığa həmişə üstünlük verdiyini deyib. Onun "Коррекция окклюзии зубов методом избирательного пришлифовывания" ("Diş tıxanıklığının selektiv üyütmə üsulu ilə korreksiyası") mövzusunda məruzəsi böyük maraqla qarşılanıb.

Bundan sonra elmi-praktik konfrans öz işini digər məruzələrlə davam etdirib.

Konfransda ATU-nun Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultan, Tərbiyə işləri üzrə prorektoru, dosent Mahir Səfərov, Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, eləcə də müvafiq kafedraların aparıcı mütəxəssisləri, rezidentlər və tələbələr iştirak ediblər.

# 10 tələbəmiz "Adlı təqaüd"ə layiq görülüb



Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının üzv təşkilatı Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi (ATİAHİRK) tərəfindən təhsildə fərqlənən və tələbə həmkarlar ittifaqı hərəkatında fəal iştirak edən 308 tələbəyə "Adlı təqaüd" verilib.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan tədbir Bakı Ali Neft Məktəbində (BANM) keçirilib. Çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu gənclər siyasətindən danışıb, gənclərin vətənpərvərlik ruhunda böyüməsi, potensialının reallaşdırılması, yüksək ixtisaslı kadr kimi formalaşması istiqamətində görülən işləri vurğulayıb. Heydər Əliyev Fondunun Azərbaycan gəncliyinin inkişafındakı xidmətlərindən bəhs edən Konfederasiya sədri Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə elm, təhsil, mədəniyyət, səhiyyə, idman və digər sahələrdə həyata keçirilən mühüm layihələri diqqətə çatdırıb.

Qeyd edilib ki, Azərbaycan həmkarlar ittifaqları da dövlətin gənclər siyasətinə fəal dəstək verir, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək hüquqlarının qorunması və potensialının inkişaf etdirilməsi istiqamətində müxtəlif tədbirlər və layihələr həyata keçirir. Belə layihələrdən biri olan "Adlı təqaüd" tələbə gənclərin elmə və təhsilə marağının artmasına, onların fərdi və peşəkar inkişafına əhəmiyyətli töhfə verir.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov təhsil sahəsində aparılan islahatlar, ölkəmizdə təhsilə göstərilən diqqət və qayğıdan, gənclərin yüksək səviyyədə təhsil alması üçün yaradılan əlverişli şəraitdən bəhs edib, "Adlı təqaüd" layihəsinin önəmini vurğulayıb.

Mərasimdə Azərbaycan Tibb Universitetinin Tədris işləri üzrə prorektoru, professor Nazim Pənahov, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Qoşqar İsmayılov və digər əməkdaşlarımız, tələbələrimiz iştirak edib.

Qeyd edək ki, məbləği 300 manat olan bu birdəfəlik təqaüd ölkənin müxtəlif orta ixtisas, peşə təhsili və ali təhsil müəssisələrində əla və yaxşı qiymətlərlə oxuyan, tələbə həmkarlar ittifaqı hərəkatında fəal iştirak edən tələbələrə verilir. ATİAHİRK-nın "Adlı təqaüd" layihəsi 1995-ci ildən həyata keçirilir. Əvvəlki illərdə hər semestr üzrə 65 tələbəyə, 2024-2025-ci tədris ilinin birinci semestrinin yekunlarına görə 100, ikinci semestrinin nəticələrinə əsasən isə 308 tələbəyə "Adlı təqaüd" verilib. İkinci semestrdə "Adlı təqaüd"ə layiq görülənlər arasında ATU-nun da 10 tələbəsi var ki, onlardan 3-ü I Müalicə-profilaktika, 2-si II Müalicə-profilaktika, 2-si Stomatologiya, 1-i İctimai səhiyyə, 1-i Hərbi tibb, 1-i isə Əczaçılıq fakültəsinin tələbələridir.

Ümumilikdə isə indiyədək 3179 tələbə bu təqaüdə layiq görülüb.

Tələbələrimizi təbrik edir, uğurlar arzulayırıq!

# Mürəkkəb uroloji əməliyyat uğurla icra edilib

***Bu günlərdə ATU-nun Tədris Cərrahiyyə Klinikasında nadir hallarda həyata keçirilən cərrahiyyə əməliyyatı icra olunub. Bu haqda Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev məlumat verib.***

Onun sözlərinə görə, 59 yaşında qadın son bir il ərzində sol bel nahiyəsində daimi küt ağrılardan, sol böyrü üstə yata bilməməkdən şikayətlənirmiş: "Eyni zamanda, qan təzyiqi daim oynayır, hətta 180-190-a qalxaraq, birdən 100-ə düşürdü. Müayinələr nəticəsində xəstədə sol böyrəküstü vəzin dörd santimetrə yaxın törəməsi aşkar edildi. Onun laparoskopik, yəni qapalı üsulla əməliyyat olunması qərara alındı. 1 saat 18 dəqiqə davam edən əməliyyatda qan itkisi 20-30 qram, yəni sıfıra yaxın oldu və heç bir fəsad baş vermədi. Xəstə günyarım sonra kafi vəziyyətdə evə yazıldı".

Professor bildirib ki, böyrəküstü vəzin əməliyyatı çox mürəkkəb sayılır: "Çünki bir tərəfdə qarın aortası, mədəaltı vəzin quyruğu, yuxarıda dalaq, sağda böyrəyin özü, bir sözlə, bu nahiyə çox təhlükəli yerdir. Onu da nəzərə çatdırım ki, bu əməliyyatla birgə narkozun idarə edilməsi kifayət qədər mürəkkəb prosesdir. Belə ki, böyrəküstü vəzin diseksiyası zamanı təzyiq bəzən 300-ə qədər yüksələ bilir. Əməliyyat zamanı başda Şöhrət Sultanov olmaqla anesteziololoji idarəetmə də yaxşı təşkil olundu və heç bir problem yaranmadı".



# İtaliyada keçirilən konqresdə təmsil olunmuşuq

Bu günlərdə İtaliyanın Venesiya şəhərində Beynəlxalq Piylənmə Cərrahiyyəsi Federasiyasının (IFSO) 13-cü Konqresi keçirilib. Konqres Avropa dövlətlərində bariatrik-metabolik cərrahiyyə sahəsində illərdir çalışan 1400 elm xadimi, mütəxəssislərin iştirakı ilə baş tutub. Ölkəmizi konqresdə təmsil edən I Cərrahi xəstəliklər kafedrasının assistenti Taryel Ömərov iki elmi məruzə ilə çıxış edib.

Tədbir çərçivəsində bariatrik və metabolik cərrahiyyə sahəsində dünya ekspertlərinin rəhbərlik etdiyi sessiyalar, innovativ cərrahi metod və texnologiyalara həsr olunmuş praktik seminarlar, fəsadların müalicəsi ilə bağlı müzakirələr, video-təqdimatlar və interaktiv panellər baş tutub.

Konqresdə bu sahədə olan ən son müalicə metodları haqqında danışılıb və şəbəkə tədbirləri təşkil edilib.





# I Tələbə forumu keçirilib

**Mayın 24-də II Müalicə-profilaktika fakültəsinin tələbələri Fatma Nur Yılmaz və Nəzirə Nuriyevanın təşəbbüsü, II MPF, Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tibb və sağlamlıq elmləri təhsili və Təcili tibb kafedralarının birgə dəstəyi ilə "Böhranlı vəziyyətlərdə ilk yardımın xüsusiyyətləri" adlı I Tələbə forumu keçirilib.**



Tədbirdə II MPF-nin dekanı, dosent İsrail Məhərrəmbəyli, THİK-in sədri Qoşqar İsmayılov və kafedra müdiri Samir Cavadlı açılış çıxışı ediblər.

Forumun birinci hissəsində universitetin müəllim və mütəxəssisləri tələbələrə nəzəri bilikləri çatdırıblar. Belə ki, İ.Məhərrəmbəyli "Hipovolemik şoklar zamanı ilk yardım", Arzu Bəydəmirova "Kardioloji təxirəsalınmaz farmakoterapiya", Türkiyədən canlı bağlantı ilə professor Cem Oktay "Travmatik olmayan döş qəfəsi ağrısı olan xəstəyə yanaşma", Aydan Qədimli "Yetkin insanlarda Təməl Həyat Dəstəyi (BLS)", Elyanə Təhməzova "Körpələrdə Təməl Həyat Dəstəyi (BLS)", Şəhla Qasımova "Dayanan ürəyi necə canlandırmalı? (ACLS)", Nərmin Səfərova "Epileptik tutmalarda ilk yardım" mövzularında məruzə oxuyublar.

Tədbir çərçivəsində "Tusmer" nəşriyyatının kitablarının təqdimatı keçirilib.

Forumun 2-ci hissəsində tələbələr əldə etdikləri bilikləri maketlər üzərində tətbiq ediblər.

# Tələbəmiz Səmərqənddə I yerə layiq görülüb

**Tələbə Elmi Cəmiyyətinin (TEC) konfranslarında təqdim olunan məruzələr bu il də öz aktuallığı, müasir yanaşma və təcrübi əhəmiyyəti ilə seçilib. Bu sıradan İctimai səhiyyə fakültəsində keçirilən XLVIII tələbə elmi konfransı ölkəmizdə elan edilmiş "Konstitusiya və suverenlik ili"nə həsr olunmuşdu.**



Qidalanma və tibbi ekologiya kafedrası üzrə təqdim edilən üç elmi iş "Elmi işin aktuallığı" və "Gələcəyin gənc alimi" nominasiyalarında diplomlara layiq görülüb. Eyni zamanda, kafedranın iki elmi işi ATU-nun 95 illiyinə həsr olunmuş Tibb Festivalında poster məruzə kimi təqdim olunmaq üçün seçilib.

Tələbələrimizin uğurları ölkə sərhədlərini aşaraq, beynəlxalq aləmdə də diqqət çəkir. Belə ki, İctimai səhiyyə fakültəsinin 321R-1a qrup tələbəsi Fərman Qurbanlı "Посуда из пластика как экологическая проблема" (Plastik qablar ekoloji problem kimi) adlı elmi işi ilə mayın 16-17-də Özbəkistanın Səmərqənd Dövlət Tibb Universitetinin 95 illiyinə həsr olunmuş 79-cu beynəlxalq elmi-praktik konfransda iştirak edib və I yer diplomuna layiq görülüb. Onun elmi işinə Qidalanma və tibbi ekologiya kafedrasının dosenti Sevinc Fətullayeva rəhbərlik edib.

Xüsusi qeyd olunmalıdır ki, qalib elmi işin əsasını təşkil edən təcrübələr məhz kafedranın elmi laboratoriyasında aparılıb. Bu fakt bir daha sübut edir ki, kafedrada tələbələrin elmi fəaliyyəti yalnız nəzəri deyil, həm də praktik əsaslarla həyata keçirilir.

# Neyroinkişaf pozuntulu uşaqların sağlam həmyaşıdları ilə sosiallaşması vacibdir

**Bu günlərdə uşaqlar arasında artmaqda olan neyroinkişaf pozuntularına həsr olunmuş genişmiqyaslı elmi-praktik konfrans keçirilib. "Neyroinkişaf pozuntularında reabilitasiya" mövzusunu əhatə edən tədbir sağlamlıq və təhsil sahəsində multidissiplinar əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verib.**



Konfrans Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB-in dəstəyi, ADLER Psixologiya Mərkəzi və Azərbaycan Pediatrlar Assosiasiyasının təşəbbüsü, LasoMedGroup-un təşkilati dəstəyi ilə Bakı şəhərində baş tutub. Nüfuzlu tədbir neyroinkişaf pozuntularının erkən diaqnostikası, effektiv müalicəsi və reabilitasiyası istiqamətində müasir yanaşmaların paylaşılması və elmi-tibbi biliklərin mübadiləsi üçün platforma rolunu oynayıb.

Konfransda respublikanın şəhər və regionlarından 120-dən çox pediatr, uşaq nevroloqu, psixiatr, psixoloq, psixopedaqoq, loqoped, endokrinoloq və digər ixtisas sahələrindən olan mütəxəssislər iştirak ediblər.

Tədbirin əsas məruzəçilərindən biri olan Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, Azərbaycan Tibb Universitetinin dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə neyroinkişaf pozuntularına kompleks və koordinasiyalı yanaşmanın tətbiqinə dair təqdimatla çıxış edib. O, neyroinkişaf pozuntuları olan uşaqlarla bağlı tibbi, sosial və bioetik çağırışlara dair geniş təqdimatda müasir tibbi yanaşmalarla yanaşı, ailə və cəmiyyət dəstəyinin əhəmiyyətini xüsusi vurğulayıb.

Alim bildirib ki, neyroinkişaf pozuntuları müxtəlif inkişaf sahələrində, o cümlədən motor bacarıqları, sosial münasibətlər, dil və idrak funksiyalarında gerilik və ya disfunksiya ilə xarakterizə olunan heterojen vəziyyətlər qrupudur. Buraya autizm spektri pozuntuları (ASD), diqqət çatışmazlığı hiperaktivlik sindromu (DÇHS), zehni geriliklər, Daun sindromu və digər nevroloji-intellektual pozuntular daxildir.

Həkim bu gün problemin qlobal miqyasda artmaqda olduğunu vurğulayıb: "UNICEF-in məlumatına əsasən, hazırda dünyada 0-17 yaşlı uşaqlar arasında orta və ağır əlilliyin yayılma faizi 10,1%-ə çatır, bu isə 236 milyon uşaq deməkdir. Təkcə ABŞ-da CDC məlumatına görə, sinir-inkişaf pozuntuları ilə diaqnoz qoyulan uşaqların nisbəti 2019-cu ildə 7,4%-dən 2021-ci ildə 8,56%-ə qədər artıb".

Pediatr çıxışında neyroinkişaf pozuntularının yaranmasına təsir edən əsas amilləri sadalayıb: "Genetik və epigenetik faktorlar, ətraf mühitin təsiri, o cümlədən toksinlər, ağır metallar, hamiləlik və doğuş zamanı baş verən ağırlaşmalar, ana və perinatal sağlamlıq göstəriciləri və sosial, psixososial determinantlar (ailə mühiti, erkən stress, sosial rifah) kimi kompleks səbəbləri nəzərə almadan təkcə simptomatik yanaşma ilə nəticə əldə etmək mümkün deyil".

Ekspert xüsusilə vurğulayıb ki, bu kateqoriyaya daxil olan uşaqlara farmakoloji müdaxilələr, xüsusilə antidepressantlar və neyroleptiklər, yalnız kompleks diaqnostika və konsilium qərarı əsasında tətbiq olunmalıdır.

Təranə Tağı-zadə uşaqların təkcə tibbi müalicə deyil, həm də sosial, psixoloji və pedaqoji baxımdan dəstək almasının vacibliyini vurğulayıb: "Uşaqların sağlam həmyaşıdları ilə birgə təhsil almaları və sosiallaşmaları vacibdir. Lakin bu zaman inklüziv təhsil proqramları ilə yanaşı, tibbi müşahidə və fərdi bərpa planlarının olması da şərtdir".

Məruzəçi təqdimatda valideynlərin rolunu xüsusi vurğulayıb. Ağır neyroinkişaf pozuntusu olan uşaqlara qulluq edən valideynlərin psixoloji dəstəyə, maarifləndirici təlimlərə və mütəxəssis yönləndirilməsinə ehtiyacı olduğunu qeyd edib.

Konfransda iştirak edən müxtəlif regionlardan bir qrup həkim elmi müzakirələrdə aktivliyi, peşəkar yanaşmaları və bu sahəyə verdikləri töhfələrə görə sertifikat və plaketlərlə təltif olunublar.

Tədbirdə Azərbaycan Pediatrlar Assosiasiyası, ATU, eləcə də digər təşkilatlardan tanınmış ekspertlər, tibb üzrə fəlsəfə doktorları, dosentlər – Fəxriyyə Məmmədova, Ülviyyə Hacıyeva, Lalə Hidayətova və Səbinə Cəfərova neyroinkişaf pozuntularının reabilitasiyası sahəsində elmi əsaslı yanaşmalarını və klinik təcrübələrini paylaşıblar.

# Əcnəbi tələbələrimiz Niderlanddan qayıdıb



Mayın 14-18-də Niderlandda gənc mütəxəssislərin elmi mübadilə platforması hesab edilən 14-cü Beynəlxalq (Bio) Tibb Tələbə Konfransı (LIMSC - International (Bio)Medical Student Conference) keçirilib. Leyden şəhərində baş tutan bu mötəbər tədbirdə universitetimizin əcnəbi tələbələri də iştirak edib. LIMSC konfransında dünyanın müxtəlif ölkələrindən gələn tədqiqatçılar elmi işlərini təqdim edir, aparıcı ekspertlərlə birlikdə tibb aləmindəki yeniliklərlə bağlı müzakirələr aparırlar. Gənc mütəxəssislərin şəbəkələşməsinə imkan yaradan bu tədbirdə seminarlar, məruzələrlə yanaşı, sosial fəaliyyətlər də təqdim olunub.

Konfransda tələbələrimiz Meysam Ghanbari Saray, Minhaalu Hassan Ali, Enes Emre, Matin Ghods və Muhammed Enes üç poster təqdim ediblər. İştirakçıların böyük marağına səbəb olan posterlər beyin iltihabı (ensefalit), Kavasaki xəstəliyi və pielonefrit mövzularına həsr olunub. Həmçinin konfrans çərçivəsində onlar bir sıra vorkşoplara qatılıblar.

**22-25 may tarixlərində Türkiyənin İzmir şəhərində Avropa Endokrin Cərrahiyyə Cəmiyyətinin (ESSE) 11-ci konqresi keçirilib. Konqresdə Avropa və digər dövlətlərdən endokrin cərrahiyyə sahəsində çalışan 1000-ə yaxın elm xadimi, mütəxəssislər iştirak edib.**

# ATU-nun cərrah-endokrinoloqu Türkiyədə konqresdə çıxış edib



Ölkəmizi beynəlxalq tədbirdə I Cərrahi xəstəliklər kafedrasının assistenti, Tədris Cərrahiyyə Klinikasının cərrah-endokrinoloqu Azər Hümmətov təmsil edib. O, "Sistoz düyünlü ur zamanı birmomentli çoxsaylı reaspirasiyalı skleroterapiyanın nəticələri" mövzusunda elmi məruzə oxuyub.

Tədbir çərçivəsində dünya səviyyəli ekspertlərin rəhbərlik etdiyi sessiyalar, innovativ cərrahi metod və texnologiyalara həsr olunmuş praktik seminarlar, kurslar, video təqdimatlar və interaktiv panellər baş tutub.

Qeyd edək ki, ESSE-nin konqresi endokrin cərrahiyyənin son nailiyyətlərini və metodlarını öyrənmək baxımından aparıcı mütəxəssislər üçün bir platforma rolunu oynayır.

# Əməkdaşımız Atatürk Universitetinin tələbələrinə məruzə oxuyub



Azərbaycan Tibb Universitetinin Ortopedik stomatologiya kafedrasının əməkdaşı t.ü.f.d. Yuris Bayramov 2 həftə ərzində Türkiyənin Atatürk Universitetində akademik fəaliyyət göstərib.

O, Diş həkimliyi fakültəsinin Protetik diş müalicəsi kafedrasında tələbələrlə görüşüb, klinik məşğələlərdə iştirak edib.

Kafedradakı şəraitlə yaxından tanış olan əməkdaşımız, həmçinin universitetin 3, 4 və 5-ci kurs tələbələri üçün "Ortopedik stomatologiyada funksional ölçü problemi və həkim səhvləri" mövzusunda məruzə söyləyib. Məruzə tələbələr tərəfindən maraqla qarşılanıb, Y.Bayramov verilmiş suallari ətraflı şəkildə cavablandırıb.

# Növbəti seminar insulin rezistentliyi mövzusunda olub




**Mayın 20-də ATU-nun Tədris Terapevtik Klinikasında Rezidentura və magistratura şöbəsi ilə Endokrinologiya şöbəsinin rezidentlər üçün "İnsulin rezistentliyi ilə əlaqədar yaranan psevdoakromeqaliya" mövzusunda birgə seminarı keçirilib.**

Seminarı Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov açaraq klinikanın Endokrinologiya şöbəsinin xəstələrə yüksək səviyyədə xidmət göstərməklə yanaşı, həm də universitetdə yüksək ixtisaslı kadrların hazırlanması işini həyata keçirdiyini deyib.

O, mövzunun aktuallığına toxunaraq bildirib ki, insulin rezistentliyi insan orqanizmində tək 2-ci tip şəkərli diabet xəstəliyinə yox, həmçinin piylənmə, qaraciyərin piy distrofiyası, yumurtalıqların polikistozu, endometriumun hiperplaziyası, arterial hipertenziya, ateroskleroz və nadir bir problem kimi rast gəlinən psevdoakromeqaliyaya təkan verən faktor kimi qəbul edilməlidir.

Endokrinologiya şöbəsinin müdiri, dosent Səbinə Məşədiyeva-Bayramova seminarda məruzə ilə çıxış edərək psevdoakromeqaliya xəstəliyindən son 20 il ərzində xarici ədəbiyyatda cəmi iki məqalədə - 2011-ci ildə Türkiyədə, 2020-ci ildə İngiltərədə bəhs edildiyini söyləyib. Onun sözlərinə görə, üçüncü klinik hadisə isə Azərbaycan Tibb Universitetinə aiddir və bu günkü seminarda işıqlandırılır.

Həmin xəstəliyin müayinə və müalicəsində, ədəbiyyat araşdırmalarında fəallıq göstərən rezident Ləman Cəfərova qeyd edib ki, hazırda insulin rezistentliyi və psevdoakromeqaliya zamanı FGF21 geninin rolunu öyrənirlər. Ola bilər ki, problemin yaranması bu gendə gedən mutasiya ilə bağlıdır.

Məruzədən sonra ətraflı müzakirələr aparılıb. Müzakirələr zamanı bu problemin genetik sindromlarla bağlılığından, psevdoakromeqaliyanın genetik araşdırmalarından danışılıb. Tədqiqatların davam etdiyi vurğulanıb.

Klinikanın baş həkimi Fəridə Hacıyeva, dosent Gülər Fətəliyeva, assistent Gülarə Axundbəyli də müzakirələrdə iştirak edərək, rezidentlərə öz tövsiyələrini veriblər.

**Mayın 17-də Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) Otorinolarinqologiya kafedrasının 80 illik yubileyinə həsr olunmuş Azərbaycan Otorinolarinqologiya Cəmiyyətinin 3-cü beynəlxalq konqresi keçirilib.**

## Beynəlxalq konqresdə 33 məruzə dinlənilib



250-dən çox otorinolarinqoloqun iştirak etdiyi konqresdə ilk öncə Vətənimizin azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni səsləndirildikdən sonra konqresin rəsmi hissəsini təşkilat komitəsinin sədri, ADHTİ-nin rektoru, professor Nazim Qasımov açıb.

Səhiyyə nazirinin müavini Nadir Zeynalov, TƏBİB icraçı direktorunun müavini Araz Nəsirov, CWASOS prezidenti, professor Metin Önerci, IFOS2026 prezidenti, professor Özgür Yiğit, Azərbaycan Otorinolarinqologiya Cəmiyyətinin sədri, professor Nazim Hüseynov iştirakçıları salamlayıb, konqresin işinə uğurlar arzulayıblar.

Sonra Mərkəzi və Qərbi Asiya Qulaq, Burun-Boğaz və Baş-Boyun Cərrahiyyəsi Birliyinin (CWASOS) sədri, professor Metin Önerci, 2026-cı ildə İstanbulda keçiriləcək Dünya Qulaq, Burun-Boğaz Konqresinin (IFOS 2026) sədri, professor Özgür Yiğit, Avropa Foniatriya Cəmiyyətinin prezidenti, professor Haldun Oğuz, Türk Qulaq, Burun-Boğaz və Baş-Boyun Cərrahiyyəsi Cəmiyyətinin sədri, professor Suat Turgut, Beynəlxalq Səhiyyə Təhsili və Araşdırmaları Cəmiyyətinin sədri, professor Selim Semed Erbek və başqaları öz məruzələrini təqdim edib. 6 paneldən ibarət olan konqresin elmi proqramı otorinolarinqologiyanın müxtəlif problemlərinə həsr olunub və ümumilikdə 33 məruzə dinlənilib.

Azərbaycan Tibb Universitetinin Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının müdiri, professor Vəfa Pənahian "Təbil pərdəsinin hərbi barotravmaları", kafedranın əməkdaşları, dosent Ayaz Qasımov "Rinogen kəllədaxili ağırlaşmalara müasir yanaşma. Xəstə report", dosent Sara Ağalar "İldırımsürətli rinogen kəllədaxili ağırlaşmalara yanaşma", assistent Şirazi İbrahimov "Otorinolarinqologiyada nazokomial infeksiyalar" mövzularında məruzələrlə çıxış ediblər.

# Milyardlarla insan qalxanabənzər vəzi patologiyalarından əziyyət çəkir



**25 May - Ümumdünya Qalxanabənzər Vəzi Günü idi. Bu əlamətdar tarix 2008-ci ildə qalxanabənzər vəzi və onun xəstəlikləri ilə məşğul olan Avropa Tiroidologiya Assosiasiyasının (European Thyroid Association, ETA) təşəbbüsü ilə təsis olunub.**

Qalxanabənzər vəzi xəstəlikləri tez-tez təsadüf olunan patologiyalara aiddir. Belə ki, qalxanabənzər vəzin funksiyasının çatmamazlığı ümumi populyasiyada 2%, 60 yaşından yuxarı əhali arasında 8% hallarda aşkarlanır. Qalxanabənzər vəzin düyünlü törəmələrinə böyük yaşlı əhalinin 30%-də təsadüf edilir. Ur - vəzin böyüməsinə ölkəmizin də aid olduğu yod defisiti olan ərazilərdə əhalinin 10-30 %-də rast gəlinir. Ümumilikdə Yer əhalisinin 1/3 hissəsi qalxanabənzər vəzin hansısa xəstəliyindən əziyyət çəkir.

Autoimmun tireoidit qalxanabənzər vəzin ən geniş yayılmış xəstəliklərindən biridir. Bu zaman orqanizmin özünə qarşı aqressiyası səbəbindən vəz hüceyrələrinə qarşı antitellər yaranır və adətən bir müddət sonra vəzin parenximası destruksiyaya uğrayır. Xəstəlik qalxanabənzər vəzi çatmamazlığı - hipotireoz ilə nəticələnir. Bu xəstəlik Haşimoto tireoiditi də adlandırılır. Bu, genetik faktor zəminində ətraf mühit təsirlərindən stumillaşan autoimmun xəstəlikdir. Genetik meyllilikdən başqa, viral infeksiyalar, tiroid antitellərin yaranmasını artıran bəzi dərmanlar (amiodaron, alfa interferon, interleykin-2), selenium çatmamazlığı, metallar və xronoki C hepatit, uzun müddət yod qəbulu kimi vəziyyətlər də autoimmun tireoiditin etiopatogenezində rol oynayır. Uşaqlar da daxil, hər yaşda rast gəlinə bilir. Lakin ən çox gənc və orta yaşlı qadınlar arasında aşkarlanır. Digər autoimmun xəstəliklərlə, ən çox da xroniki qastrit (2,8%), vitiliqo (2,7%), revmatoid artritlə (2,4%) bərabər rast gəlinir.

Adətən ağrısız ur ilə müşayiət olunsa da, böyümə olmayan hallara, bəzən hətta atrofik vəziyyətlərə də təsadüf edilir. İlkin aşkarlanmada xəstələrin 75%-də eutiroid, 25%-də subklinik və ya aşkar hipotiroid vəziyyət olur. Hər il subklinik xəstələrin 3-5%-i aşkar hipotireoz qrupuna keçir. Başlanğıcda TSH və antitel səviyyəsi nə qədər yüksək olarsa, aşkar hipotireozun meydana çıxması riski də o qədər yüksəkdir. Normal TSH və autoantitel varlığında tiroid funksional testlər 6-12 ay tezliyi ilə təqib olunmalıdır.

Nadir hallarda Haşimoto tireoiditi fonunda tireotoksikoza təsadüf edilir. Bu vəziyyət Haşitoksikoz adlanır. Xəstəliyin başlanğıcında TSH reseptorlarına qarşı antitellərin yaranması ilə əlaqədar meydana çıxır. Sonradan hipotireozla əvəzlənir.

Xəstələr sifətdə, əllərdə olan şişkinlik, çəkinin artması, dəri quruluğu, saçların kövrəkləşməsi və tökülməsi, qəbizlik, kəskin ümumi yorğunluq, iş qabiliyyətinin aşağı düşməsi, yuxunun pozulması, yaddaşın zəifləməsi kimi şikayətlər edirlər. Bu vəziyyət orqanizmin bütün sistemlərinin fəaliyyətini pozur, həyati vacib funksiyaları zəifləndir. Həm qadınlarda, həm də kişilərdə reproduktiv funksiyaya təsir göstərir.

Gündə 1 dəfə lazımi dozada L-tiroksin qəbulu ilə idarə edilə biləcək bir vəziyyətin həyat keyfiyyətini aşağı salmasına imkan verməyək!

**Könül İsmayılova,**
*II Daxili xəstəliklər kafedrasının assistenti, endokrinoloq*

**Mayın 10-11-də İstanbulda 6-cı Otologiya və Audiologiya konqresi keçirilib. İstanbul Yeni Yüzyıl Universitetinin dəstəyi ilə baş tutan tədbirdə Türkiyə, Azərbaycan, Yunanıstan və Niderlanddan olan ekspertlər iştirak ediblər. Tədbir çərçivəsində bir sıra panellər və kurslar təşkil olunub.**

## Əməkdaşlarımız Türkiyədə konqresdə iştirak ediblər



Bu nüfuzlu tədbirdə Azərbaycan Tibb Universitetini Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının müdiri, professor Vəfa Pənahian və həmin kafedranın dosenti Sara Ağalar təmsil ediblər. Konqresə məruzəçi qismində qatılan professor V.Pənahian "Orta qulaq cərrahiyyəsi" mövzusuna həsr edilmiş paneldə çıxış edib. Dünya miqyaslı alim, professor Elefterios Ferekidisin də qatıldığı bu sessiyanın sonunda əməkdaşlarımız aktiv iştiraka görə plaketlə təltif olunublar.

## ATU-nun müəllimi pakistanlı tələbələrə dərs keçib

**Əczaçılıq toksikologiyası və kimya kafedrasının assistenti Kəmalə Bədəlova Pakistanın Lahor Universiteti Əczaçılıq fakültəsinin tələbələri üçün tibbi kimya, ədliyyə əczaçılığı və klinik toksikologiya mövzularında geniş mühazirə oxuyub.**



Bundan başqa, o, Lahor Universitetinin İmperator Əczaçılıq Cəmiyyəti (UOL-IPS) tərəfindən təşkil edilən "Hormonların mürəkkəb dünyası" mövzusunda vebinarda qonaq məruzəçi qismində iştirak edib. UOL-IPS Əczaçılıq fakültəsinin dekanı, professor Khalid Hussain və Əczaçılıq departamentinin müdiri Kashif Barkatın rəhbərliyi ilə baş tutan vebinar əczaçılıq tələbələri və mütəxəssislərin geniş auditoriyasını əhatə edib.

Məlumat üçün bildirək ki, Kəmalə Bədəlova müqavilə əsasında Lahor Universitetinin ştatdankənar müəllimidir.

# DAAD proqramları haqqında məlumatlandırma görüşü keçirilib

**Alman Akademik Mübadilə Xidməti – DAAD-ın təqaüd proqramlarına həsr olunmuş məlumatlandırma görüşü keçirilib.**



DAAD proqramının ATU üzrə əlaqələndiricisi (koordinatoru), Patoloji fiziologiya kafedrasının dosenti Sevinc Pənahova çıxış edərək, DAAD-ın Tbilisi regional ofisinin rəhbəri Gebhard Reul və regional koordinator Sevər Qarayevanı təqdim edib və mübadilə proqramlarının beynəlxalq elmi tədqiqatların aparılmasında əhəmiyyətini vurğulayıb.

Tədbir zamanı Gebhard Reul və Sevər Qarayeva Almaniya təhsil sistemindən və tədqiqat imkanlarından, 100 illik tarixi olan DAAD-ın inkişaf yolundan danışıblar. Proqramda iştirak etmək üçün qaydalar, şərtlər, seçimin aparılması, müraciətlərin vaxtı (deadline), dil biliklərinə dair tələblər ətraflı izah olunub.

Qeyd olunub ki, Almaniyada 2,9 milyon tələbə var, onların 375 mini əcnəbi tələbələrdir. Almaniya əcnəbi tələbələr üçün təhsil almaq imkanlarına görə dünyada ilk beş ölkə arasındadır.

Çıxışlardan sonra sual-cavab sessiyası keçirilib və mövzu ətrafında müzakirələr aparılıb.

# Beynəlxalq elmi layihədə uğurlu çıxış

**Azərbaycan Tibb Universiteti və Gulf Tibb Universitetinin tələbələri beynəlxalq elmi əməkdaşlıq çərçivəsində süni intellekt mövzusunda tədqiqat işi təqdim ediblər.**



Stomatologiya fakültəsinin tələbəsi Nəzrin Yusibova Birləşmiş Ərəb Əmirliklərinin aparıcı ali təhsil müəssisələrindən olan Gulf Tibb Universitetinin tələbələri Youser AlMaged və Sarah Salim ilə birgə beynəlxalq elmi layihədə uğurla çıxış edib. Layihə Appolonia World tərəfindən təşkil olunmuş beynəlxalq tələbə simpoziumunda təqdim olunub.

"Retension üçüncü molyarların cərrahi çətinliyinin qiymətləndirilməsində ChatGPT-nin rolunu təyini: faydalı bir vasitə, yoxsa qarışıqlıq mənbəyi?" mövzusuna həsr olunan tədqiqat süni intellektin kliniki qərarvermədə effektivliyini qiymətləndirməyə yönəlib.

Tədqiqat ATU-nun Ağız və üz-çənə cərrahiyyəsi kafedrası və GTU-nun Diaqnostik və cərrahi elmlər kafedrası arasında elmi əməkdaşlıq çərçivəsində və professor Çingiz Rəhimov (ATU), dosent Sabrin Ali Azim, dr. Suraj Sebastian, dr. Marwah Abdullah və dr. Shoaib Rahmanın (GTU) akademik rəhbərliyi altında həyata keçirilib.

Appolonia Təşkilat Komitəsinin rəhbəri dr. Asma Nababteh bu əməkdaşlığı sosial platformada nümunəvi transsərhəd tədqiqat təşəbbüsü kimi dəyərləndirib. O, paylaşımında müxtəlif ölkələrdən olan tələbələrin birgə işləməsinin elmi nəticələrin daha geniş spektrdə formalaşmasına töhfə verdiyini vurğulayıb.

Qeyd edək ki, Azərbaycan Tibb Universitetinin məzunu olan dr. Sabrin Ali Azim uzun illərdir BƏƏ-də akademik və klinik fəaliyyət göstərməklə yanaşı, ATU-nun beynəlxalq səviyyədə tanıdılması, tələbə mübadiləsi və ortaq tədqiqatların təşkili istiqamətində mühüm töhfələr verməkdədir.

# "Hicran" tamaşası alqışlarla qarşılanıb

**Mayın 16-da Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən "Həyat" teatr klubunun tələbə aktyorları tərəfindən tanınmış yazıçı-dramaturq Sabit Rəhmanın "Hicran" tamaşası səhnəyə qoyulub.**



Universitetimizin rektoru, professor Gəray Gəraybəyli, prorektorlar, professor-müəllim heyəti və tələbələrin izlədiyi tamaşa aktyor heyəti tərəfindən məharətlə oynanılıb.

Bacısı Fatı Orxanı evləndirmək istəyir. Amma ona kimi göstərsələr də bəyənmir. Çünki sevdiyi olub. Amma onun sevdiyi qızı – Hicranı bacısının əri də istəyir. Bunun üçün Qızbacını vasitəçi kimi araya salır. Amma gözlənilməz vəziyyət yaranır. Hicran bir həkim kimi onların evinə gələndə Orxanı görür. Sevgililər bir-birinə qovuşur. Hicran rolunu oynayan Züleyxa Quliyeva, Orxan rolunu oynayan Mehman Rəhimli bir-birlərinə olan səmimi hissləri ilə tamaşaçılarda xoş duyğular yarada bildi. Mitoşun - Maarif Eyvazovun yenidən eşqə düşməsi və sonda istəyinə nail ola bilməməsi isə onu gülünc vəziyyətdə qoydu.

Qızbacının (İlahə Quliyeva) və Dadaşbalanın (İsmət Ağazadə) Mitoşun qurduğu planların üstünü ustalıqla açmaları tamaşaçılarda xoş əhval-ruhiyyə yaratdı. Özünə ər axtaran Çarlston – Jalə Məmmədli, Baləmi – Fəxri Qardaşov, Həkim - Bəhruz Abbasov da ifa etdikləri rollarla tamaşaçıların alqışlarını qazandılar.

Musiqili tamaşada Nigar Hüseyn, Selcan İsazadə, Zəhra Rəsulova, Günel Tağı, Aydan Paşayeva, Şəmsi Əhmədlinin ifasında gözəl rəqslər tamaşaya bir başqa rəng qatdı.

**Tədqiqatçı tələbə**

# İctimai səhiyyə sahəsində gənc liderin uğurları və hədəfləri

**Fatimə Nuriyeva İctimai səhiyyə fakültəsinin ictimai səhiyyə ixtisasının IV kurs tələbəsi, fakültə üzrə Tələbə Elmi Cəmiyyətinin sədridir.**




Tibb Universitetini seçmək qərarının həm şəxsi motivasiyası, həm də insanlara faydalı olmaq istəyi ilə bağlı olduğunu deyir: "Çoxları mənə bu universitetdə oxumağın çətin olduğunu və tibb təhsilinin xüsusi zəhmət tələb etdiyini deyirdi. Amma bu məni daha çox həvəsləndirdi. Çünki çətinliklər mənim üçün maneə deyil, özümü sınamaq və inkişaf etdirmək üçün bir fürsətdir.

Xüsusilə, ictimai səhiyyə kimi bir ixtisasda təhsil almaq yalnız fərdi olaraq xəstələrlə işləmək deyil, eyni zamanda idarəetmə, planlaşdırma və tibb sahəsini daha geniş miqyasda anlamaq üçün imkanlar təqdim edir. Bu sahədə həm tibb elminin əsaslarını, həm də strateji qərarvermə proseslərini öyrənmək mənim üçün çox maraqlıdır".

Onun sözlərinə görə, tələbəlik illəri özünü inkişaf etdirmək və yeni təcrübələr qazanmaq baxımından çox dəyərli olub. Belə ki, bu illər ərzində hər zaman fəallıq göstərərək müxtəlif akademik, elmi və sosial layihələrdə iştirak edib. Bəzi müəllimlərin heyranedici təcrübələrini bölüşməsi təhsil prosesinə daha çox motivasiya ilə yanaşmağına stimul verib.

Tədris və imtahan prosesi ümumilikdə tədqiqatçı tələbəni qane etsə də, daha çox praktiki dərslərin artırılması və imtahanlarda əzbərçiliyin yox, analitik təhlil qabiliyyətinin qiymətləndirilməsi ilə bağlı təkmilləşmələrin faydalı olacağını düşünür.

Elmi araşdırmalara marağının universitet illərində formalaşdığını söyləyən F.Nuriyeva, ictimai səhiyyə və tibb sahəsində problemlərin həllində elmi yanaşmanın vacibliyini dərk etdikdən sonra bu sahəyə daha dərindən maraq göstərməyə başladığını bildirir: "Tələbə Elmi Cəmiyyətində aktiv fəaliyyətim mənə araşdırma metodologiyası, məlumatların təhlili və elmi nəticələri təqdimetmə bacarığı qazandırdı.

Bu marağın nəticəsi olaraq bir neçə uğur əldə etmişəm. Universitetdə təşkil olunan elmi konfranslarda çıxışlarım yüksək qiymətləndirilib və bəzi layihələrim mükafatlandırılıb. İlk olaraq, universitet səviyyəsində elmi işimlə birinci yerə layiq görüldüm. Daha sonra Naxçıvanda "Tibb tələbələri və gənc tədqiqatçıların respublika konfransı"da birinci yer tutmaqla uğurlarımı genişləndirdim. Bu nailiyyətlər mənə yalnız motivasiya deyil, həm də beynəlxalq miqyasda özümü sınamaq üçün fürsət verdi. İstanbulda elmi işimi təqdim etmək və bu sahədə beynəlxalq mütəxəssislərdən rəy almaq mənim üçün çox dəyərli bir təcrübə idi. Bu uğurlar tibb və ictimai səhiyyə sahəsində dərin araşdırmalar aparmaq və cəmiyyət üçün



innovativ həllər təqdim etmək istiqamətində mənim üçün yeni perspektivlər açdı. Bundan əlavə, tələbələr üçün startap təlimləri təşkil edərək, ictimai səhiyyə ilə bağlı innovativ ideyaların inkişafına töhfə verdim".

F.Nuriyeva tədqiqat işinin əsas tezisinin yaşlı insanlar arasında ən çox rast gəlinən xəstəliklər və onların profilaktikasının araşdırılmasına yönəldiyini, ilk elmi işində yaşlılar arasında tez-tez rast gəlinən xəstəliklər sırasını tərtib edərək, hər birinin səbəbləri, əlamətləri və qarşısının alınması üçün tövsiyələri təqdim etdiyini vurğulayır: "Bu araşdırmalar yaşlılar arasında sağlamlığın qorunması və həyat keyfiyyətinin artırılması üçün praktiki tədbirləri nəzərdə tutur. Əsas məqsədim Azərbaycanda ictimai səhiyyəni inkişaf etdirmək, xüsusən də səhiyyə xidmətlərinin keyfiyyətini artırmaq və cəmiyyətin sağlamlıq bilgisini yüksəltməkdir. Bu sahədəki uğurların yalnız tibbi xidmətlərlə məhdudlaşmaması, eyni zamanda insanların sağlam həyat tərzini mənimsəməsi və sağlamlıq mövzusunda maarifləndirilməsi ilə bağlı olacağına inanıram.

İctimai səhiyyə sahəsində fəaliyyət göstərmək mənə yalnız tibbi müdaxilələr deyil, həm də cəmiyyətin həyatını yaxşılaşdıracaq genişmiqyaslı proqramlar həyata keçirmək imkanı verəcək. Çünki həm elmi, həm də praktik təcrübə qazandıqca, daha çox bilik və bacarıq əldə edərək, tibbin bu sahəsinə dəyərli töhfələr verəcəyimə tam əminəm.

Gələcəkdə isə öz klinikamı açaraq bu sahədəki bilik və təcrübəmi daha geniş bir auditoriyaya təqdim etmək, həmçinin müxtəlif tibbi xidmətlər göstərərək cəmiyyətin sağlamlığını qorumaq arzusundayam. Hazırda uğurlarımın artması ilə daha geniş əhatəli layihələr həyata keçirmək və Azərbaycanda səhiyyə sisteminin inkişafında mühüm rol oynamaq mənim üçün başlıca hədəfdir".

**Böyük təəssüf hissi və dərin hüznlə bildiririk ki, Azərbaycan Tibb Universitetinin "Təbib" qəzetinin məsul katibi, şair, jurnalist Mənsur Ələkbərli vəfat edib.**

# Xatirəsi qəlbimizdə daim yaşayacaq səmimi insan



Mənsur Abbas oğlu Ələkbərov 13 yanvar 1963-cü ildə Göyçə mahalının Basarkeçər rayonunun Subatan kəndində doğulub. Orta məktəbi 1981-ci ildə bitirib.

1988-ci ildə Azərbaycan Dövlət Universitetinin "Kitabşünaslıq və nəşr işi" fakültəsinə daxil olub və təhsilini davam etdirməklə bərabər, M.F.Axundov adına dövlət kitabxanasının Elmi-metodiki şöbəsində redaktor, baş redaktor vəzifələrində çalışıb. 1993-cü ildə həmin fakültəni poliqrafiya ixtisası üzrə başa vurub.

1997-ci ildən ömrünün sonunadək Azərbaycan Tibb Universitetinin mətbu orqanı olan "Təbib" qəzetində məsul katib işləyib. Dövri mətbuatda səmərəli fəaliyyətinə görə Azərbaycan Jurnalistlər Birliyinin "Həsən bəy Zərdabi" diplomuna layiq görülüb.

Bədii yaradıcılığa və jurnalistika fəaliyyətinə gənc yaşlarından başlayan Mənsurun bu illər ərzində dövri mətbuatda yüzlərlə ədəbi-publisistik məqaləsi, bədii yazıları, şeirləri çap olunub. Onlarla kitaba redaktorluq edib, ön söz yazıb. "Bu dünya mən görəndimi", "Tanrınındı bu yer üzü" adlı şeir kitabları işıq üzü görüb. Azərbaycanın tanınmış şairi, yazıçısı, əməkdar jurnalist Eldar İsmayıl Böyüktürkə həsr edilmiş biblioqrafik göstəricinin müəllifidir.

Şeirlərinin birində yazırdı:

*Günüm keçdi gah istidə, şaxtada,*
*Heç baxmadım uçub gedən vaxta da.*
*Qismətimə düz də düşüb, saxta da,*
*Tanrı verən paydı deyə götürdüm.*

Qismətində iki oğul övladının toyunu görmədən, 62 yaşında bu dünyadan köçmək də varmış. Sonuncu şeirlər kitabını "Tanrınındı bu yer üzü" adlandırmışdı. İndi isə özü Tanrının dərgahındadır.

Yaddaşlarda səmimi insan, nümunəvi ailə başçısı, etibarlı dost, istedadlı şair və peşəkar jurnalist kimi qalan Mənsurun işıqlı xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

**Allah rəhmət eləsin!**
**Ruhu şad, məkanı cənnət olsun!**

**Azərbaycan Tibb Universitetinin rektorluğu,**
**Həmkarlar İttifaqı Komitəsi**
**"Təbib" qəzeti redaksiyası**

**Allah rəhmət eləsin!**

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın preparatoru Səriyyə xanıma qudası **Bəhaddin bəyin** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları iş yoldaşları Mehriban Ələkbərovaya həyat yoldaşı **Mənsur Ələkbərovun** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Etibarsız sayılır**

Essmaail AlFahad (qrup 218İ-1a) və Burak Köse Savaşın (qrup 118İ-1a) müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0010
Sayı 800